# Azərbaycan muğamı, xalq mahnıları və təsnifləri dünya şöhrəti qazanmış klassik musiqi əsərləri ilə bir səhnədə

Qəbələ düz 7 ildir ki, bir sıra regional və beynəlxalq tədbirlərlə yanaşı Heydər Əliyev Fondunun möhtəşəm layihəsinə--Beynəlxalq Musiqi Festivalına ev sahibliyi edir. Xarici qonaqların dili ilə desək, bu füsunkar və ecazkar təbiətə, mehriban insanlara malik diyar dünyanın bir çox ölkələrində tanınmaqdadır.





Hər il yay aylarında təşkil edilən bu musiqi bayramının proqramına "Muğam axşamı" da daxil edilir. Bu il də iyul ayının 29-da, festivalın 5-ci günü açıq səhnədə keçirilən axşam konserti üçün Azərbaycan muğamına yer ayrılmışdı. Həmin axşam Heydər Əliyevin adını daşıyan yüksək arxitektura tələblərinə uyğun Konqres Mərkəzinin parkında yüksək qələbəlik, bayram əhval-ruhiyyəsi duyulurdu. Hələ konsert başlamazdan xeyli əvvəl buraya dəstə-dəstə xoş əhval-ruhiyyəli insanlar axışırdı. Onların arasında ailəlilər, yaşlılar da çox idi. Yerli muğamsevərlərlə yanaşı xaricdən gələn qonaqlar, turistlər də az deyildi. Bizcə bu o demək idi ki, festival günlərində klassik sinfonik musiqi ilə yanaşı Azərbaycan xalq musiqisinə də göstərilən maraq az deyildi. Əlbəttə, bu marağın yaranmasında istər respublikamızda, istər qonşu regionlarda, istərsə də bir sıra xarici ölkələrdə Heydər Əliyev Fondunun prezidenti UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın əməyi xüsusi qeyd edilməlidir. Bir vaxtlar, daha doğrusu müstəqilliyimizin ilk illərində bəzi, Azərbaycançılıq və vətənpərvərlik hissini itirənlər tərəfindən muğam və xalq mahnılarımızın az qala üstündən qələm çəkilirdi. Lakin Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycan mədəniyyətinin, incəsənətinin təbliği ilə bağlı tərtib edilərək qəbul olunan layihələr əsasında həmin problemlər aradan qaldırıldı. Hazırda Azərbaycan mədəniyyətinin və incəsənətinin təbliği dünya meridianlarına da yol açmışdır. Bu gün əsasən dünyada sayılıb-seçilən klassik musiqi əsərlərinin səsləndirildiyi eyni səhnədə Azərbaycan muğamının və xalq mahnılarının, təsniflərinin də yer alması əlbəttə, hər bir düşüncəli Azərbaycan vətəndaşında qürur hissi doğurmaya bilməz.

Nəhayət, muğam axşamına toplaşan insanların intizarı sona çatır. Tamaşaçılara unudulmaz musiqi həyecanı yaşadan "Muğam axşamı"na ümummilli lider Heydər Əliyev Fondunun dəstəyi ilə təşkil edilən Muğam Televiziya müsabiqəsinin iştirakçıları, artıq xalq arasında yaxşı tanınan sənətkarlar dəvət edilmişdilər. "Muğam aləmi" Beynəlxalq Muğam festivalı çərçivəsində II Beynəlxalq Muğam müsabiqəsinin qalibi, Azərbaycan Dövlət Filarmoniyasının solisti Ehtiram Hüseynovun, bir sıra müsabiqələrin mükafatçısı, Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti Arzu Əliyevanın, "Muğam Televiziya müsabiqəsi-2011"də III yeri tutan Nigar Şabanovanın, 2007-ci ildə keçirilən muğam müsabiqəsində II yerə layiq görülən Abgül Mirzəyevin məharətlə oxuduqları xalq mahnıları, muğamlar və təsniflər tamaşaçılar tərəfindən yüksək alqışlarla qarşılandı və onlara gül buketləri təqdim olundu.

Muğam və mahnı ifaçılarını tarda əməkdar artist, Azərbaycan Milli Konservatoriyasının dosenti, Prezident mükafatçısı Sahib Paşazadə, kamançada bir sıra müsabiqələrin iştirakçısı, Azərbaycan Milli Konservatoriyasının müəllimi Toğrul Əsədullayev, nağarada Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin üzvü Emin Cəbrayılov müşayət edirdilər.

**Nadir ATAKİŞİYEV.**

# Tanınmış musiqi ifaçıları Qəbələ VII Beynəlxalq Musiqi Festivalı haqqında



**Luis el QRANAİNO—İspaniya "Barselona və Flamenko" ansamblının üzvü:** Qəbələ VII Beynəlxalq Musiqi Festivalı ansamblımızın üzvlərində çox dərin təəssüratlar yaratdı. Xüsusilə də tamaşaçıların konsertimizə münasibəti bizi ruhlandırdı. Ölkənizi çox sevdim. Festival yüksək səviyyədə təşkil olunmuşdur. Burada konsertlər möhtəşəm keçir. Belə festivalla hər bir ölkə fəxr edə bilər. Bəzi Avropa ölkələrində bu cür, yəni açıq havada festival hələ də yoxdur.



**Janna QANDELMANN—İsrailin məşhur violin ifaçısı:** bizi bura dostumuz, festivalın bədii rəhbərlərindən Dmitri Yablonski dəvət edib. Bu festival haqqında əvvəllər eşitmişdim, amma bu ilki tədbirin proqramından xəbərim yox idi. Festivalın bu qədər gözəl bir yerdə möhtəşəm təşkil ediləcəyinə inanmırdım. Mən burada məşhur pianoçu Fərhad Bədəlbəyli ilə birgə səhnəyə çıxdım və möhtəşəm kamera konserti verdik. Xoş təəsüratlarla ölkəmizə qayıdırıq. Gələcəkdə konsertlə bağlı dəvət almasam da buralara turist kimi mütləq gələcəyəm.



**Cankarlo de LORENZO—İtaliya Simfonik Orkestrinin dirijoru:** Dünyanın tanınmış musiqiçilərinin bu festivala qatılmağı, əlbəttə ki, onun yüksək səviyyəsindən xəbər verir. Auditoriyanın festival çərçivəsində keçirilən konsertlərə marağı məni heyran edir. Mənim rəhbərliyimlə Qəbələdə İtaliya Simfonik Orkestrinin iki gün konserti oldu. Biz ilk dəfə olaraq Azərbaycan bəstəkarı Ü. Hacıbəylinin "Koroğlu" operasından üvertüranı səsləndirdik. Tamaşaçılar bizi ayaqüstə alqışladılar. Musiqiçiyə bundan böyük hədiyyə ola bilməz. Biz çox şadıq ki, dahi Ü. Hacıbəylinin əsərini yüksək səviyyədə ifadə edə bildik. Sizin xalqın böyük bəstəkarları, gözəl musiqiləri var.

(Ardı 4-cü səhifədə).